# Müasir kod ölkəsi

Yaponlar maraqlı kodlaşma sistemi tətbiq ediblər. Onlar reklam elanlarına QR adlı kod daxil ediblər. Müasir telefonların çoxu fotokameralarla təchiz olunduğundan reklamda yerləşdirilən



ikiölçülü ştrixkod telefonun kamerası ilə çəkilir, sonra isə telefondakı proqrama atılır. Proqram ştrixkodu avtomatik olaraq mobil saytın ünvanına çevirir və istehlakçının tele - fonun ekranına daha ətraflı məlumat çıxarır.

Əlbəttə, bunu istifadəçiyə öyrətmək, telefona müvafiq proq-ramlar yükləmək, reklamçını mobil saytlar yaratmasına və reklam elanlarına QR-kodların daxil etməsinə inandırmaq lazımdır. Yaponiyada bu sistem işləyir, xüsusən də ona görə ki, ABŞ-dakı kimi abunəçilər telefon aparatlarını öz opera - torlarından alırlar.

İkiölçülü ştrixkodlar vasitəsilə nəinki mobil saytların ünvanlarını əldə etmək olar, həmçinin də McDonald's-dakı hamburgerin üzərindəki kod şəklini çəkərək onun tərkibi haqqında məlumat almaq olar. Bizdə isə belə sistemin tətbiqi hələ də mürəkkəbdir.

**Özünüz yoxlayın**

Həmin texnologiyanın məlum olan və əldə edilən «qərb» versiyası Semacode adlanır. Bu proqram çox da məhşur olmasa da, ancaq bir neçə təsir edici aksiyalarda istifadə olunub.

Amerika provayderi Qwest «Zarnitsa» tipli şəhər oyunları yaradıb. Bu oyunlarda mobil telefonlarla təchiz edilmiş dəstələr xəzinə axtarışına çıxırlar və marşrutlarını ikiölçülü ştrixkodlarla şifrələn - miş HTML mesajları ilə tutuşdururlar.

«Semacod»-un oxunması üçün proqram, Java dəstəyi olan çoxlu sayda mobil telefonlar üçün pulsuz şəkildə açıqdı.

